Cümə 8 fevral 2008-ci il

VAHİD AZƏRBAYCAN UĞRUNDA!

iki sahil

GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET

# Şövkət Ələkbərovanın xatirə gecəsi keçirilib

Dünən Tofiq Quliyev adına 12 saylı musiqi məktəbində Azərbaycanın xalq artisti, görkəmli ifaçı Şövkət Ələkbərovanın vəfatının 15-ci ildönümünə həsr olunan xatirə gecəsi keçirilib. APA-nın xəbərinə görə, tədbirin aparıcısı, xalq artisti Nurəddin Mehdixanlı Şövkət Ələkbərovanın Azərbaycan musiqisinin ayrılmaz bir hissəsi olduğunu deyib: "Şövkət Ələkbərova tək gözəl ifası ilə deyil, davranışları və insanlığı ilə də hər birimizin ürəyinə yol tapmağı bacarıb. Bu il Şövkət xanımın həm də 85 yaşı tamam olacaq. Şövkət xanımın 80 illik yubileyi yüksək səviyyədə qeyd olunmuşdu. Ümidvarıq ki, onun 85 illiyi də qeyd olunacaq". Mərasimdə çıxış edən Tofiq Quliyev adına 12 saylı musiqi məktəbinin direktoru




və Şövkət Ələkbərovanın gəlini Gülnarə Səfərova sənətkarın heç zaman unudulmayacağını qeyd edib. G. Səfərova Azərbaycan xalqı və musiqisi var olduqca, Şövkət Ələkbərovanın yaşayacağını vurğulayıb. Xalq artisti, bəstəkar Arif Məlikov ölməz sənətkarı tanıdığı və onunla əməkdaşlıq etdiyi üçün özünü çox xoşbəxt hiss etdiyini açıqlayıb: "Onun ifasında həzin və ürək oxşayan mahnılar hər birimizin beyninə həkk olunub. Bu ifa illər boyu keçsə də, bizim yaddaşlarımızdan çıxmayacaq. Şövkət Ələkbərova ifa etdiyi heç bir mahnıda cüzi də olsa qüsura yol verməyib. Bu, onun peşəkarlığından və musiqi duyumundan xəbər verir. Bəzən heç bir insanın əvəzolunmaz olmadığını deyirlər, ancaq Şövkət Ələkbərova heç zaman əvəz olunmayacaq. Onu əvəz etmək mümkün deyil". A. Məlikov bugünkü sənətçilərə də Şövkət Ələkbərovanın yolunu getməyi məsləhət görüb: "Şövkət Ələkbərovanın bir oktavadan bir az çox səsi olub. Ancaq o, öz diapazonu ilə bütün musiqiləri gözəl ifa edib. Demək sənətkar olmaq üçün yüksək səsə malik olmaq deyil, mahnını duyaraq ifa etmək lazımdır". Aybəniz Haşımova isə çıxışında Şövkət Ələkbərovanın gözəl sənətkar olmaqla yanaşı, gözəl ürəyə sahib insan olduğunu deyib: "Şövkət Ələkbərova mənə qızım dediyi üçün özümü xoşbəxt insan sayıram. O, müəllimliklə yanaşı, eyni zamanda bizlərə analıq edib. Şövkət Ələkbərovanın həyat şamı hər zaman yanacaq, o şam söndüyü an mən də olmayacağam".